

*Aprel Məmmədov*

# Gedəsən dünyanın axırınacan

## Ramiz Qusarçaylının eyni adlı şeirlər kitabı haqqında düşüncələr

**Poeziya sahəsində öz dəst-xətti olan, heç kəsə bənzəməyən Ramiz Qusarçaylı ilə ilk tanışlığım 2019-cu ilin 6 aprel tarixində Şabran rayon "Xaqani Poeziya Evi"ndən başlanır. Həmin gün müəllif mənə öz şəxsi imzası ilə "Gedəsən Dünyanın axırınacan" adlı kitabını hədiyyə etdi. Şairin həmin kitabını və sosial şəbəkələrdə verilən digər yazılarını oxuyandan sonra onun çox istedadlı, təkrarolunmaz, mükəmməl bir qələm sahibi olduğunu hiss etdim. Oxucular da onun şeirlərində üzdə dayanan məntiqi mənanı yox, həm də onun əsil məğzini təşkil edən estetik və poetik mənasını hiss etməklə bu şeirlərin həqiqi, dolğun, hərtərəfli olduğunu dərk edirlər. Şairin şeirlərində yeni təşbehlərə, təzə və təravətli məcazi vasitələrə də tez- tez rast gəlinir.Bu cəhətdən şairin kitabının birinci bölməsində "Mən kənddən çıxanda gecə yarıydı" şeiri dediklərimi bir daha təsdiq edir:**

***Mən kənddən çıxanda gecə yarıydı,***
***Söyüdlər yol üstə tellənirdilər.***
***Coşan ürəyimin duyğularıydı,***
***Sinəmdən süzülüb sellənirdilər.***

***

***Enib dərələrin, düzlərin üstə,***
***Gecə öz diliylə layla deyirdi.***
***Baş qoyub dağların dizləri üstə***
***Yollar şirin-şirin mürgüləyirdi.***

"Gedəsən dünyanın axırınacan" şeirində şair yazır:

***Gedəsən dünyanın axırınacan,***
***Bir misra xətrinə ölüb gedəsən.***
***Qaçıb adamından naxırınacan***
***İzini, tozunu silib gedəsən...***

Şair bu bölmədə çap olunan şeirlərində Vətənin füsünkar təbiət gözəlliklərini, qədim tarixi yurdların yazını, payızını, qışını rəssam gözü ilə əsrarəngiz şəkildə təsvir etməklə oxucularda xoş ovqat yaradır.

"Mənim Dağıstanım" kitabının müəllifi Rəsul Həmzətov yazır ki, "İstedadın nə itələnməyə ehtiyacı var, nə də yedəklənməyə, istedad özü özünə yol tapır və kecir qabağa". Ramiz Qusarçaylı da klassik şeir ənənələrimizə sadiq qalaraq, həm də onunla kifayətlənməyərək şeirdə yenilik yaratmağa çalışan çox istedadlı qələm sahiblərimizdəndir. Şairin istedadı nədən yazmağında deyil, necə yazmağındadır. O, elə yazır ki, şeirləri müasir oxucuların artan mədəni zövqünü təmin etməklə, daim onlarda yüksək hisslər, humanist duyğular,vətənpərvər ideyalar aşılayır.

Kitabın ikinci bölməsi "Bu qurban olduğum Vətən" adlanır.

***Davam nə can davasıdı,***
***Nə də yorğan davasıdı,***
***Azərbaycan davasıdı-***
***Ayrı dava mənlik deyil,***

- deyən şair Azərbaycanımızı düşdüyü bu ağır bəlalardan xilas etmək üçün xalqı yüksək vətənpərvərlik duyğuları aşılamaqla işğal altında olan torpaqlarımızı azad etməyə səsləyir. Şairin bü bölmədə ən çox oxunan və diqqət çəkən "Azərbaycan bayrağı" şeiridir.Vətənini sevən hər bir kəs bu şeiri oxuduqca qürrələnir və and yerimiz olan üçrəngli bayrağımızın işğal altında olan torpaqlarımızda bir gün əbədi olaraq dalğalanacağına inanır.

***Şənini vəsf etməyə yetər qüdrətim, yetər,***
***Ulduzunu, ayını göydə mələklər ötər,***
***Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,***
***Sən ey İstiqlalımın əbədiyyət sancağı-***
***Azərbaycan bayrağı!***

Vətəninin dərdlərini öz dərdi bilən şair ürəkləri göynədən və parçalayan "Bu qurban olduğum Vətən" şeirində görün nə deyir:

***Gedir, yad əldə can gedir,***
***Can-can Azərbaycan gedir,***
***Gör kimlərə qurban gedir***
***Bu qurban olduğum Vətən...***

Tökülən günahsız qanların yerdə bu qədər çox qalması ilə barışmayan, günü-gündən artan şəhid qəbirlərinin üstündə göz yaşı axıdan anaların dərdlərini heç kəslə bölə bilməyən şair "Düşməz" şeirində yazır:

***Vətən dərdi-, çəkəm, budu,***
***Sevgim budu, hikkəm budu,***
***Kəbəm budu, Məkkəm budu,-***
***Yolum ayrı pirə düşməz...***

Zaman-zaman itirilmiş və əldən verilmiş Vətən torpaqlarını ürək ağrısı ilə daim oxucusunun qan yaddaşına çatdıran şair "Vətən " şeirində bunları hamıya bir daha xatırladır:

***Dərbəndin içinə yıxılan daşlar,***
***Bizim başımıza qaxılan daşlar-***
***Vətən!***

***Göycə harayına Borcalı yandı,***
***Bu dərd ürəkləri parçalayandı,***
***Vətən!***

Daim Vətənin keçmişini, bu gününü düşünən "Mənim ölmüşümə rəhmət düşürmü?" şeirində "misralarının hər bəndi belə ağlayan" və yurd həsrətli insanları ağladan şair dərdlərini özünün və xalqın dərdləri hesab edərək bir an rahatlıq tapa bilmir:

***Bu Araz alveri, Samur alveri,***
***Bu çürük başların mamır alveri,***
***Gedir yurd alveri, çadır alveri,***
***Mənim ölmüşümə rəhmət düşürmü?***

Ramiz Qusarçaylı poeziyasının əsas mövzusu müasir dövrümüzün ruhunu əks etdirməklə, xalqımızın mənəvi aləmini, qüssə və kədərini özündə əks etdirir.Bunu şairin "Dərdə bax, binə-binə", "Qaytarın Şuşamı, qaytarın mənə","Laçında nə var, nə yox", "Ağdaban bayatıları","Yatan igid","Yağır Araz üstə güllə yağışı", "Gecələr dağlara baxa bilmirəm","Quba daşları", "Mən əsgər gedəndə" və sair şeirlərində də görmək olar.

Şairin kitabının üçüncü bölməsi "Gəl oxuyaq saz dilində" adlanır.Əvvəlki bölmələrdə olduğu kimi şair yenə ənənəsinə sadiq qalaraq bu bölmədə də "qəmli musiqi sədaları altında" əsas diqqəti yenə də Vətənin dərdlərinə yönəldir:

***Nə xırman bir, nə dən birdi,***
***Döyən min-min, bədən birdi.***
***Mən ha deyim Vətən birdi,***
***İkidi Araz dilində.***

***

***Üçü deyil, beşi deyil,***
***Haqdan dönən kişi deyil,***
***Hər oğulun işi deyil***
***Gəl oxuyaq saz dilində...***

Öz xalqının tarixi keçmişini,həyat və psixologiyasını dərindən bilən, ədəbiyyat və sənəti ilə yaxşı tanış olan şairin "Zəminxarə" şeirində Vətən sevgisi, onunla ağlamaq, onunla gülmək dərdləri açıq-aydın görünür:

***Ah, təzə dərdin boyatı,***
***Dilimdən qaçar bayatı,***
***Qarabağ,Qacar-bayatı,***
***Zülüm-zülüm dəmin xarə,***
***Zəminxarə,***

***

***Araz, Samur...a Sar çaylı,***
***Rast dərəli, Nisar çaylı,***
***O səs sənsən,Qusarçaylı,***
***O çay sənsən, gəmin xarə,***
***Zəminxarə.***

Ramiz Qusrçaylının "Bəstənigar","Şəddi-Şahnaz", "Baş müxəmməs", "Gilənar", "Divani", "Yastı balaban" və digər könül oxşayan şeirləri musiqi notları üzərində qurulduğundan bu gün dillər əzbəri olmuşdur. Həyatın bütün incəliklərini, romantikasını, ağrı-acısını, sevincini, kədərini görən, duyan şair məhz incə ruhlu, rəngarəng, maraqlı və məzmunlu şeirləri ilə öxucularının rəğbətini qazanmışdır.

Şairin kitabında müxtəlif sənət adamlarına həsr etdiyi şeirlər də məzmun və keyfiyyətinə görə diqqəti cəlb edir. Bu şeirlərdə insanlığa və dostluğa münasibət əsas yer tutur. Hərənin ona daş atdığı bir dövrdə şair sözün cilovunu əlində möhkəm tutduğunu söyləməklə,"Nəyim varsa özümündü","Söz","Mən sözə çarmıxam" şeirlərində sözün mahiyyətini, rolunu obyektiv şəkildə qiymətləndirməklə, "bir sözlə yüz arxın suyunu açan" şair onun gözəl anlayış vasitəsi olduğunu, lakin son zamanlar kəsərdən düşdüyünü bildirir:

***Heç nəyində gözüm yoxdu,***
***Tam yox, dərdin tamı kimi,***
***Özüm kimi yaşayıram,***
***Öləcəyəm hamı kimi.***

***

***Göz yaşım Söz yaşıdı,***
***İşığında şam öldü.***
***Ölən halal yaşadı,***
***Yaşayan haram öldü.***

Yiyəsiz yurdların xiffətini çəkərək sinəsi "dərd qapısı və qəm yuvasından çat -çat " olan şair yazır:

***Kim dərd çəkər, kim kefini,***
***Düşmən gülür yad sevinir,***
***Yıxdılar xalqın evini***
***Gizlənib xalqın içində...***

Daim torpağını və millətini düşünən şair heç nədən çəkinmədən öz sözünü "Nə var ki...", "Ölüb bu torpağın altından keçdim","Yeyin, bu millətin başını yeyin" və sair şeirlərində kəskinliklə ifadə edir:

***Yaman ucuzlaşıb başın qiyməti,***
***Torpağın qiyməti, daşın qiyməti...***
***...Bu millət nə günə qoydu özünü,***
***Nə günə qoydular gör, bu milləti...***

***

***Əyri əldən düşüb, düz ölən deyil...***
***Ölən mən özüməm, söz ölən deyil,***
***İlahi, bu millət düzələn deyil?!***
***Ölüb bu torpağın altından keçdim...***

Siyasi oyunlar girdabında çalxalanan, torpağı yad əllərdə olan və xəyanət içində lillənən, yellənən Vətənin dərdləri şairin "Vətəni sevməyə qoymurlar məni", "Çürüyür", "Ağalar, bağlayın ciblərinizi" və sair şeirlərinin əsas mövzusuna çevrilmişdir. Bu şeirlərdə şair kimlərəsə yaltaqlıqla yarınanları, bədxah xəfiyyələri, ciblərini doldurmaqla məşğul olan üzdəniraq "ağaları" kəskin tənqid etməklə, onları bir az da olsa Vətəni düşünməyə səsləyir:

***Şeirə xəyanət, sözə xəyanət,***
***El üçün kor olan gözə xəyanət,***
***Xəyanət içində lillənir Vətən.***
***Siyasi oyunlar yelləncəyində***
***Yetim uşaq kimi yellənir Vətən....***
***Vətəni sevməyə qoymurlar məni.***

Göründüyü kimi, Ramiz Qusarçaylı müstəqil dövlətçiliyimizin ilk günlərindən öz mükəmməl poeziyası ilə müasir ədəbiyyatımızın əməli inkişafında yaxından iştirak etməklə öz sözünə və amalına sadiq qalan şairlərimizdəndir. O,həmişə böhranlı düşüncələrdən, dolaşıq fikirlərdən uzaqlaşmaqla, bu günün reallıqlarını duymaqla, onu yaradıcılığında tətbiq etməyə çalışmışdır. Şerlərindən başqa heç nəyi olmayan, ilk kitabının nəşrini bilə-bilə on il gecikdirənlər, şairi "bir qırıq daş sayanlar" sonradan onun istedadı qarşısında susmağa məcbur oldular. Bütün bunları şairin "Tənha daşlar" şeirində daha aydın görmək olar:

***Heç nəyim yox idi şeirdən özgə,***
***Adamım yox idi, pulum yox idi.***
***İmzama gəlincə-ya tat, ya ləzgi,***
***Elə bil millətim elim yox idi...***

Bu bölmədə şairin dövrünün bir çöx görkəmli adamlarına, qələm sahiblərinə həsr etdiyi şeirləri də diqqəti cəlb edir. Bunlardan biri də Şabran rayon "Xaqani poeziya evi"nin direktoru, tanınmış şairə Aybəniz xanıma həsr etdiyi "Aybəniz Əliyar üçün" şeiridir. Demək olar ki, müxtəlif janr və şəkillərdə yazan şair üçün elə bir mövzu yoxdur ki, ona şeir yazmasın. Məhz Ramiz Qusarçaylı şair dostu Aybəniz xanımın yorulmayan və tükənməyən fədakarlığını nəzərə alaraq ona bu şeirini yazmışdır:

***Daha aya yovuşmur,***
***Şama yazır şeirini.***
***Selə suya sığışmır,***
***Quma yazır şeirini.***

Lirikası ictimai motivlərlə zəngin, çoxcəhətli yaradıcılığa malik Ramiz Qusarçaylının kitabının digər bölməsi "Aparır məni mələklər" adlanır. Bu bolmədə çap olunan şeirlərinin bəziləri halına ağladığı, onun göz yaşlarına gülən və dərdlərinin şumunda öləcək dünyanın gələcək aqibətləri öz əksini tapıb. Çox böyük ideoloq və təfəkkür sahibi olan şair baş verən hadisələrə həssaslıqla yanaşaraq dünyanı məhvərindən yapışaraq onu öz əllərində bir alətə çevirmək istəyən insanların böyük fəlakətlərlə üzləşəcəyini sanki qabaqcadan hiss edirdi. Bunu bu gün qarşısı alınmaz bəlaya çevrilən və dünyanı cənginə alan "korona pandemiya"sı təsdiq edir. Şairin "Dünya", “Dünyanın", "Bu dünya nə yaman qarışdı, bala...","Dərdini mey kimi..." və sair şeirləri dediklərimi təsdiq edir:

***Addım-addım aşınır Yer,***
***QİyamətƏ daşınır Yer,***
***Daha göydən boşanır Yer,***
***Talağına şükür, Dünya.***

Şeir janrının müxtəlif usullarından istifadə edən şair sözdən, şeir dilindən düzgün istifadə etməklə onu daha da zənginləşdirir. Şair kitabının "Qurudub göndərmə bənövşələri" bölməsində zəngin, əsrarəngiz təbiət gözəlliklərini vəsf edərək əbədi, tükənməz sevgi və məhəbbət dolu şeirləri ilə də diqqəti cəlb edir."Bənövşəm mənim", "Hardasan," "Gəl desən", "Sevmə məni", "Heç olmasa küsüb get","De, hansı vədimdi", "Ağlama","Bir tel ağı,bir tel bayatı","Yatmır bu naz ürəimə","Səndən küsməyə gəlmişəm","Sənin işığından keçir bu yollar","Bəlkə gəlməsən yaxşıdı", "Ürək", "Mən öləndə gələrsən" və digər şeirlərində şair sevən, təklikdən belə ürəyinə yara düşən və göyüm-göyüm göyərən dünyanı istəməyərək fəryad edən, saf, təmiz məhəbbətlə sevən aşiqin səmimi ürək çırpıntılarını, hicrandan doğan intizarını, düşüncə və arzularını məharətlə təsvir etmişdir:

***Hardasan, öldürür bu təklik məni,***
***Ovutmur bu güllük, çiçəklik məni...***
***Sənsiz göyüm-göyüm göynəyirəm mən,***
***Sənsiz bu dünyanı neynəyirəm mən.***

Coşqun,romantik təbiətli şairin coşub-daşan arzuları və xəyalları dünyada baş verən hadisələrdən belə xali deyildir.Bunu şairin kitabının axırıncı bölməsindəki "Bu il qaranquşlar Yəmənə uçmaz" və digər şeirlərində də görmək olar. Son illər müsəlman ölkələrinə, eləcə də ölkəmizə qarşı qərəzli mövqedə olan və "ayağa dolaşan" super gücləri, "kənar əllər"i ifşa edən şair yazır:

***Endirin unudub bəndəliyini,***
***Allahın işinə qarışanları,***
***Endirin Allahla vuruşanları,***
***Bəndənin kefinə soğan doğrayıb***
***Allahın kefini soruşanları,***
***Endirin yerə,***
***Allahdan aşağı nə var endirin...***

Müəllifin ixtisarla verilmiş "Məğlubiyyət" poemasında "Tanrı nurundan var olan Vətən"i qoruya bilməməkdə özünü günahkar sayan şair əslində hamımızın bu işdə günahkar olduğumuzu bir daha diqqətimizə çatdırır. Tökülən qanları, itirilən torpaqları yaddan çıxarmamaqla Vətənə müraciət edən şair xalqı səfərbər olmaqla qələbəyə səsləyir:

***Qan-qan, ölüm-ölüm uduzdum, səni,***
***Səni yesir-yesir uduzdum, Vətən....***
***Qız-qız, gəlin-gəlin uduzdum səni,***
***Səni əsir-əsir uduzdum, Vətən***

Beynəlxalq təşkilatların- ATƏT-in, BMT-nin sammit və qətnamələrinin icra olunmayaraq uzun illər kağız üzərində qalması şairin nifrət və qəzəbini daha da coşdurur.

***Səni ATƏT-ATƏT uduzdum, Vətən,***
***BMT-BMT uduzdum səni.***
***Səni sammit-sammit uduzdum, Vətən,***
***Qətnamə-qətnamə uduzdum səni.***

**Ədəbi yaradıcılığında Vətən, xalq ruhu və özünəməxsus milli koloriti, dil sadəliyi və ustalığı ilə seçilən XXI əsr Müstəqil dövlətçiliyimiz tarixində məzmunlu və dolğun şeirləri ilə tanınan Ramiz Qusarçaylı bu gün də yaradıcılığını çox böyük coşqu və həvəslə davam etdirir. Onun şeirləri sadə, aydın və oxunaqlı olmaqla klassik şeir ənənələrimizi,üslub xüsusiyyətlərimizi qoruyb saxlamaqla inkişaf etdirməyə xidmət edir. Bu yolda tanınmış və görkəmli şairimizə daha böyük yaradıcılıq uğurları arzu edirəm.**